F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Sözün Zərif Kədəri: Mədinə Gülgün Poeziyası

Mədinə Gülgünün 100 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırla həsr olunmuş Respublika uşaq kitabxanaları üçün metodik vəsait

**Bakı - 2026**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Sözün Zərif Kədəri: Mədinə Gülgün Poeziyası:** Mədinə Gülgünün 100 illik yubileyi münasibəti ilə kütləvi oxucular üçün hazırlanmış metodiki vəsait /tərt. ed. A. Əliyeva; red. R.Məmmədli; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2026.- 28s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Giriş

Qadın şair… Bu sözlərin özündə belə bir sirr, bir zərif üsyan, bir səssiz qüdrət gizlənir. O, misralar arasında təkcə sözləri deyil, zamanın nəfəsini, insan ruhunun ağrılarını və ümidlərini daşıyır. Qadın şairin qələmi bəzən ana laylası kimi sakit, bəzən də fırtına kimi üsyankardır. Onun poeziyası nəinki oxunur, hiss edilir; çünki hər misra yaşanmış duyğunun, düşünülmüş taleyin izlərini daşıyır.

Qadın şair üçün söz sadəcə ifadə vasitəsi deyil — söz onun taleyidir. O, cəmiyyətin görünməyən qatlarını, qadın ruhunun dərinliklərini, sevincin və kədərin incə çalarlarını poeziyanın işığında görünən edir. Səssiz qalan hissləri danışdırmaq, unudulan duyğulara səs vermək onun poeziyasının əsas missiyasıdır. Qadın şair həm zamanın şahididir, həm də zamanla mübarizə aparan ruhdur. Tarixin müxtəlif çağlarında qadın səsi çox vaxt pıçıltı kimi eşidilib. Amma poeziyada bu pıçıltı misralara çevrilərək güclü bir səda olub. Qadın şair bu sədanı qoruyub saxlayan, ona forma və məna verən sənətkardır. Onun yazdıqları yalnız şəxsi taleyin deyil, bütöv bir nəslin, bir düşüncə tərzinin bədii salnaməsidir. Bu fikirlər şairin poeziya dünyasına açılan bir qapıdır. Burada sözlərin arxasındakı düşüncə, misraların altındakı fəlsəfə, sükutun içindəki hayqırtı ilə üz-üzə gələcəyik. Çünki qadın şairi oxumaq — qadın ruhunu, insan taleyini və həyatın özü ilə aparılan bitməyən dialoqu anlamaq deməkdir.

Azərbaycan poeziyasının zərif, amma sarsıdıcı səslərindən biri olan Mədinə Gülgün sözə yalnız misra kimi deyil, tale kimi yanaşan şairlərdəndir. Onun poeziyası zamanın sükutunda doğulan etirafları, insan ruhunun ən incə titrəyişlərini və qadın qəlbinin dərinliklərində gizlənən səssiz üsyanı daşıyır. Mədinə Gülgünün şeirlərində kədər bir kölgə kimi yox, işıqla danışan bir həqiqət kimi görünür; sevgi isə pafosdan uzaq, düşüncəyə çevrilmiş bir duyğu şəklində boy göstərir. O, sözlə öz taleyini yazan, ağrını estetikaya çevirən, həyatın sərt üzünü lirikanın yumşaqlığı ilə qarşılayan sənətkardır. Mədinə Gülgünün yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında həm qadın taleyinin poetik salnaməsi, həm də dövrün mənəvi-psixoloji portreti kimi dəyərləndirilə bilər. Bu məqalədə şairənin bədii dünyasına, poeziyasının fəlsəfi qatlarına və sözünün yaddaşımızda buraxdığı izlərə nəzər salınacaq.

Sevimli şairə Mədinə Gülgünün 100-illik yubileyi münasibəti ilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “Qadın Taleyinin Şeir Dili” adlanır və şairənin həyatından bəhs edir. “Ağrının Estetikaya Çevrildiyi Poeziya” adlı II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

**Həyat və yaradıcılğı**

Mədinə Gülgün 1926-cı il yanvarın 17-də Bakıda fəhlə ailəsində anadan olmuşdur. Burada ibtidai məktəbi bitirmişdir.1938-ci ildə ailəliklə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə köçmüşlər. Sonra Təbriz şəhərində yaşamış, əmək fəaliyyətinə burada toxuculuq kitabxanasında başlamışdır. O, həyatı dərk etməyə başladığı andan Azərbaycan xalqının milli hüquqlarının pozulduğunun əyani şahidi olur... Onu da dərk edir ki, mübarizə aparmaq üçün kifayət qədər savadlı və bilikli olmaq lazımdır. Odur ki, qısa müddətdə Ərəb qrafikasını və fars dilini öyrənir. Sonralar Təbriz Dram Teatrında çalışmışdır. "Azərbaycan" Qəzeti redaksiyasında xüsusi müxbir işləmiş Mədinə Gülgün 1945-1946 "Cənubi Azərbaycan Milli Azadlıq Hərakatı"nın fəal iştirakçısı və öz mübariz şeirləri ilə ömrü boyu həmin inqilabın carçısı olmuşdur. Şairə 1948-ci ildə "Azərbaycan Dövlət Pedeqoji Universiteti"nin (Azərbaycan Pedoqoji İstitutu) nun dil və ədəbiyyat fakültəsinə daxil olmuş, 1952-ci ildə isə həmin fakültəni bitirmişdir. Mədinə Gülgünün uşaq yaşlarından ədəbiyyata böyük həvəsi olmuşdur, xüsusən Aşıq Ələsgəri, M. Ə. Sabiri və Natəvanı sevərək mütailə etmişdir. O, məktəb səhnəsində göstərilən kiçik tamaşalarda iştirak edir, bəzən göstərilən bu tamaşalara özünün yazdığı kiçik şeir parçalarını da əlavə edirdi. Böyük qəlbə, gözəl qələmə sahib olan Mədinə Gülgünün öz yaradıcılığı haqda dedikləri hər insanda kövrək hislər oyadır. "Hələ uşaq ikən eşitdiyim, məktəb yaşlarında oxuduğum gözəl şeir nümunələri qəlbimdə poeziyaya sönməz məhəbbət çırağı yandırmışdır. Ata-anamın ilki idim, kiçik ailəmizdə məndən sonra altı uşaq da dünyaya göz açmışdı. Gəlin anamın beşik başında əyləşib öz körpələrinə şirin laylay deməsini indi də xatırlayıram. Onun laylalı, bayatılı səsi qəlbimə, yaddaşıma hopmuşdur. Mən çox-çox uzaqda qalan o illərin-analı dünyamın şirinliyini, kovrəkliyini, istiliyini indi də qəlbimdə duyuram. Minnətdaram anamın şirin-şəkər, gül ətirli laylalarına. Hələ otuz altı-otuz yeddi il bundan əvvəl əlimə qələm alıb şeir yazmaq həvəsinə düşəndə məhz bu laylalar ilhamıma qanad vermışdir. Pərvazlanmaq istəyən körpə bir quşcuğazın can atdığı şeir asimanına nur çiləmişdir. Anam elə şirin-şirin nağıl danışardı ki, insan özünü məhz o nağıllarda imiş kimi hiss edərdi.

İlk nəğməmi anamdan,

Həvəsi söz dünyamdan,

Ümidini inamdan

Alıbdır mənim şeirim.

Məktəbli dövrümdə çoxlu şeirlər əzbərləyirdim. Etiraf etməliyəm ki, Məhsətini, Natəvanı, Mirvarini, Nigarı oxuyanda ürəyimdə şeir yazmaq həvəsi bir az da artardı. Onların şeirləri ilıq yaz mehi kimi könlümü oxşar, xəyalımı həzin, kövrək, ümidli bir qadın-şair aləminə aparardı. Onlar kimi şeir qoşmaq, söz demək istəyi keçərdi qəlbimdən... Bu arzumu heç kəsə deməyə cəsarət etməzdim. Bu hissləri o zaman mən sadəcə olaraq uşaqlıq-cavanlıq xəyalpərvərliyi kimi başa düşərdim. Bir gün bərkiməmiş qələmimlə ağ varaq üstə ilk səfərə çıxdım. Şeir yazdım. Lakin bu şeiri heç kimə oxumadım. Günlər, aylar keçdikcə bu səfərimin də sayı artdı. Artıq, yazdığım şeirlər sanki özləri dilə gəlib kövrək-kövrək mənə pıçıldadılar: Bizi pərvazlandır, bizi çıxar gün işığına. Mənə belə gəlir ki, şeir də uşaq kimidir. O, dünyaya gəldimi, ayağı yer tutan kimi, doğma və yenə doğma qayğılarla əhatə olmalıdır". Mədinə Gülgünü oxucularına sevdirən onun yaradıcılığına xas olan səmimiyyətidir. Onun şeirləri hər bir oxucunu düşündürməyə bilməz. Mədinə Gülgünün şeirlərində vətən məhəbbəti və vətən həsrəti insanı düşündürməkdə və vətənə sevgi aşılamaqdadır. Demək Mədinə Gülgün vətən şairidir, azadlıq sairidir.

Qızıl günəş göy üzündə güləndə,

Nəğməsini quşlar bağ-bağ böləndə,

Mən göz açıb bu dünyaya gələndə

Bəxt ulduzum burda yanan olubdur,

Mədinə Gülgün bir mübariz şair olmaqla yanaşı, könülləri riqqətə gətirən lirik şeirlərin də müəllifidir. Onun poeziyası mübarizlik ruhunda şeirləri qədər əsrarəngiz lirikası ilə də oxucunu valeh edir. Bu bir həqiqətdir ki, şair Gülgünün sənəti mövzu məhdudluğu tanımadığı kimi, onun üçün səpki və janr məhdudiyyəti də olmamışdır. Şair qələminin qidalandığı insan aləmi və onun taleyi zəngin bir xəzinədir. Orada sevgiyə, sədaqətə, əhdə, vəfaya, övlad məhəbbətinə, vətənə, sülh və əmin-amanlığa, arzulara, təbiətə, gözəlliyə, məftunluğa kifayət qədər yer verilmişdir. Şairin lirik əsərlərilə yaxından tanış olduqca, onlarla səmimi ünsiyyət tapdıqca, bir həqiqət daha inandırıcı şəkildə üzə çıxır. Mədinə Gülgünün yaradıcılığının araşdırılması bir daha sübut edir ki, ilk yaradıcılıq dövrü və gənclik çağları mübarizələrdə keçən şair, poeziyamızda ayrılıq, Vətən həsrəti, gözəlliyin tərənnümü, məhəbbət mövzusuna ardıcıl müraciət edənlərdən biridir. "Könlün ala bilmirəm, vətən, ala bilmirəm səninçün, səninçün" deyən Mədinə Gülgün şimalda cənub həsrəti çəkirdi. Məhs buna görə şairin poeziyasında diqqəti cəlb edən cəhətlərdən biri də vətənə bağlılıq, o tay-bu tay həsrəti, şimal-cənub təəssübüdür.

Bir torpaq üstündə doğulmuşuq biz,

Bir qolum Bakıdır, bir qolum Təbriz.

Mədinə Gülgünün əksəriyyət şeirləri vətən özləmi, yurd nisgili qoxuyur. ”Yaxındır Təbrizin yolu” və o yaxın yolu qət etməkçün  “bir ömür də çatmadı” və ya “dərdli-dərdli ötərəm Təbrizi görməyincə” və yaxud “gözümdə dünyanın həsrəti, qəmi” şeirlərində şairin vətən həsrətini, könül nisgilini, qəlb yanğısını duyuruq. Vətən sevgisi, azadlıq həsrəti onun yaradıcılığının əsas hissəsini təşkil edir. Onun şeirlərində başlıca yer tutan hicran, həsrət motivləri də buradan irəli gəlirdi. O lal vərəqlərə süzülən  həsrət, özləm təkcə şairin vətən həsrəti deyildi, eyni zaman da bütöv bir  xalqın nisgili, həsrəti, həyacanıdır.

Təbrizin gülləri qöncə

Güllər açmaz mən gəlincə.

O öz poeziyasında xalqın arzularını özününküləşdirərək oxucuya catdırırdı. Məhs bütün bunlara görədir ki, Mədinə Gülgün  az bir zamanda sevildi, xalqın şairinə, el qızına çevrildi. O öz xalqının səsi oldu, sözü oldu.

Bir körpə quş görsəm açıbdır qanad,

Onundur, elə bil, bütün kainat.

Könlümdə başlanır sanki toy-büsat,

Mən susa bilmirəm, susa bilmirəm.

Körpə bir quşun qanad çalmasına belə sevinən, sevincini gizlədə bilməyən lirik qəhrəmanın qırx ildən artıq bir müddətdə vətən ağrısını ürəyində gəzdirməyi, əlbəttə, təbiidir, təsirlidir. Lirik qəhrəman: ”Hələ yorulmamışam vətənçün alışmaqdan, yanmaqdan, yanmaqdan...” - deyir və biz də Mədinə Gülgünün qırx yaşlı poeziyasını oxuduqca, mənimsədikcə, söylənən bu fikrin poetik təsdiqini tapırıq.  Mədinə Gülgün qərib-qürbətlik yaşayan bir cox şairdən fərqli olaraq, öz tərcümeyi halını da ancaq şeirlərilə təsvir etmişdir. Özü də çox yığcam, poetik şəkildə. Aşağıdakı səkkiz misra səksən səhifəlik nəsri yazıdan geniş, daha emosianal məlumat saçmırmı:

Mənim, ey dost, o sahildə neçə nəğmə, sözüm qaldı,

Bahar fəsli alovlandı, bağım, baxçam, düzüm qaldı.

Əmək çəkdim, səhər-axşam, çiçəkli, güllü bağ saldım.

O bağda gözləri yaşlı, bənövşəm, nərgizim qaldı.

Vətən dərdi yaman dərddir, əsir yarpaq  kimi qəlbim,

Haray ellər, yad ellərdə sevincli Təbrizim qaldı.

Deyin ki, Gülgünə gəlsin, alışdım yandım həsrətdən,

Fəqət məhv olmadım, ey dost, kül altında közüm qaldı.

Ancaq Mədinə  Gülgün nisgilə qapılmırdı, sabaha ümidlə baxırdı. Onun qəlbi mübarizlik ruhu ilə dolu idi və bu onun əsərlərində özünü yüksək  şəkildə büruzə verirdi. Mədinə Gülgünün  azad vətənə qovuşmaq diləyi  suyu da, buludu da, torpağı da, insanı da dilləndirir, mübarizəyə çağırırdı.  Belə ki, ”Bir görüş yerinə gün doğar bir yaz.” və “Elmimin, vətənimin sabahına inandım” və ya “Hər gün məni oyadarlar qızıl rəngli səhərlərim” buna misaldı.

Mədinə Gülgün ən çox baharda xatırlanardı sanki. Zərif şairimiz bahar aşiqi idi. Füsünkar təbiətimizin vurğunu idi. ”Quşların vətənə dönən qatarı mənim arzularımdır, ümidlərimdir” devizi ilə yaşayırdı sanki bu gözəl xanım. Onun bu səpkidə yazılmış şeirlərini oxuduqda bir az da kövrəlirik elə bil. Onun qəlb gözüylə baxırıq ana təbiətə. Sanki yaz, bahar  bir ayrı gəlmiş yurdumuza, çiçəklər- güllər, yam-yaşıl düzlər bir ayrı gözəldir. Məmləkətimizin lap ucqar bir kəndində açan bir çiçəyin ətri, bir şehin şəffaflığı, bir yamacın qoxusu bütün yurda yayılır, bir bülbülün cəh-cəhi hər yerdə eşidilir sanki şairin gözlərində.

Səhər  yeli pəncərəmi döyür yenə,

Qızıl günəş sığal verir tellərinə.

Qaranquşlar oxuduqca dönə-dönə,

Hər şey xəbər verir bizə:bahar  gəlir.

Mədinə Gülgün həyat eşqi ilə pərvazlanan bir xanım idi. Yer, torpaq, hava, iqlim, ana təbiət, göy, asiman, bütün canlılar, bir sözlə ulu tanrının yaratdığı hər bir varlıq Mədinə Gülgünü ruhlandırır və onun incə, zərif köksündən, həssas qəlbindən bir gül ləçəyi tək qopub ağ vərəqlərə, o dilsiz, lal səhifələrə süzülüb onları dilə gətirir, həyat verirdi. Şairin digər şeirinə nəzər salırıq. Sanki şeirin özü də bir nəğməyə cevrilib  dilimizdən qəlbimizə pərvazlanır.

Bahar gələr, nazı artar güllərin,

Yuxuları sona çatar güllərin.

Sinəsində şəbnəm yatar güllərin,

Susan könlüm nəğmələrlə dinər bil,

Ürək nəğmə dünyasına dönər, bil.

Bəli, Mədinə Gülgünün qırx illik poeziyası insanı yüz illərlə düşünməyə sövq edir. Onun əsərlərində fəlsəfi fikirlər, vətənə, insana, insanlığa, əməyə, elmə sövq edən tərənnüm bariz şəkildə görünməkdədir. Vətən həsrəti, mübarizə eşqi, sülh, azadlıq, ideyaları şairənin yaradıcılığının ana xəttini təşkil edir. Mədinə Gülgün həmişə coşqun, həmişə kövrək, həmişə ilhamlıdır. Bu gün Gülgün kimi şöhrət tapmış Mədinə Ələkbərzadənin  ilk qələm sınaqları 40-cı illərin- əvvəllərindən qəzet və jurnal səhifələrində görünməyə başlamışdır. Bu dünyada hərənin baxtına bir ömür payı düşür. Mədinə Gülgünün də baxtına şair ömrü düşdü. O, ədəbiyyatımıza özünə məxsus tərzi, üslubu ilə yenilik, gözəllik, xüsusi zənginlik bəxş edən  bir xanım şairimiz idi. Əminik ki, zəngin ədəbi irs qoyub getmiş Mədinə Gülgünün sələflərinin döyüş və sənət ənənələrinə sadiq olan nəsillər onun Vətənə sevgi, döyüşə və mübarizəyə çağırış nidalı qələm məsullarını dövrün xitabət kürsülərindən inam və şairə tükənməz məhəbbət hisləri ilə indiyə qədər olduğu kimi, həmişə səsləndirəcəklər.  Altmış beş il yaşamış  bu şair neçə- neçə ədəbi-bədii mənzərələr, müdrik fəlsəfi fikirlər yaratdı.

Sən dünyanı dolan, gəz,

Bu dünyaya inan, gəz,

Bir toxum da cücərməz

Məhəbbət olmayanda...

...Bir sənətkar getdi dünyadan. Şairə ürəyini həsrət odunda damla - damla əridib şeirə çevirib bizə, gələcək  nəsillərə qoyub getdi. Və nə vaxt ki, onun şeirlərini oxuyub sevincini, kədərini duyacağıq, qəlbimizi onun sənəti isidəcək, Mədinə Gülgün o qədər yaşayacaq. Şairə həsrətini, kövrək qəlbinin nisgilini özü ilə aparıb getdi. Vətəndaşı olduğu o poeziya ölkəsini isə tərk etmədi, əksinə orada özünə əbədi  bir yer tutdu.

Ey ətri ürəyə məlhəm qızılgül,

Sənə heyran olub aləm qızılgül.

Sənin pasıbanın tikanlarındır,

Mənim silahdaşım qələm qızılgül.

**Görkəmli şəxsiyyətlərin Mədinə Gülgün haqqında söylədikləri:**

Sevgidə sədaqət, əhdə vəfa, həyat eşqi, insanın ucalığı, ana-qadın qəlbinin minbir əsrarlı kəhkəşanı övlad məhəbbəti, sülh, əmin-amanlıq arzuları, vətən duyğusu və s. Mədinə Gülgünün şeirlərində həmişə öz əksini tapmışdır.

Bəkir Nəbiyev,

Professor

Gülgün həmişə kövrək, həmişə ilhamlıdır. Onun qəlbində vətən həsrəti, analıq duyğuları, mübarizə eşqi, bir vəhdət təşkil edir. Ürəyində belə gözəl duyğular yaşadan şairənin yolu daim yüksəlişədir!

Mirvarid Dilbazi,

Xalq şairi

Mədinə xanım kövrək xanımdır. Bəlkə də, şeirlərindəki səmimilik belə bir ürəyə sahib olduğundandır .

Nəriman Həsənzadə,

Xalq şairi

Mədinə Gülgün "arzuları şirin" o ana ehtirası ilə: "Mən inanıram, bir gün Ərkin sinəsinə əbədi gün düşəcək. Gün düşəcək..." –deyir.

Elçin,

Xalq yazıçısı

Mədinə Gülgünün yaradıcılığında ürəyin poetik vurğuları ilə poetik anları qovuşmuşdur. Bu yaradıcılıq lirik ruh, inqilabi çağırış, həyat eşqi, sevgidə vəfa və ayrılığın həzin pıçıltıları ilə mənalıdır.

Söhrab Tahir,

Xalq şairi

Mədinə Gülgünün yaradıcılığı ilə tanış olduqca, vətənpərvərliyin bizə tanış hər elementini görə, hər notunu eşidə bilərik.

Tahir Əhmədalılar

## Yubiley tədbirlərinin keçirilməsi

2016-cı il yanvar ayının 17-də zərif, müdrik, istedadlı şairəmiz, Azərbaycan poeziyasının inkişafına sərf etdiyi əməyə görə dövlət tərəfindən yüksək qiymətləndirilib "Şərəf nişanı" ordeni, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə mükafatlandırılmış, eyni zamanda Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsi idarə heyəti Azərbaycan şöbəsinin üzvü Mədinə Gülgünün 100 illik yubileyi ilə əlaqədar mədəniyyət və elm ocaqlarında bir sıra tədbirlər keçirilməsi nəzərdə tutulur. F. Köçərli adına RUK- sı olaraq, kitabxanamızda da bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə şairənin kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr nümayiş olunur. Sərgini müxtəlif başlıqlarla adlandıra bilərik. Məsələn: "Mədinə Gülgün-100", "Haçansa yenə yaz gələcək", "Hələ yorulmamışam vətənçün alışmaqdan, yanmaqdan, yanmaqdan...", "Məni ozan etdi vətənin dərdi", "Həsrətsiz günlərlə əkiz olaydım", "Xatirələrimin nəğməsi", "Ürəklərdə, nəğmələrdə yaşayanlar", "Dastana çevrilmiş həyat", "Nənələr və nəvələr", "Siz ey Ərdəbildə qalan günlərim, illərin əlində talan günlərim", "Qadın poeziyası və duyğusal çalarlar", "Elmimin, vətənimin sabahına inandım", "Axırdı önümdən Astara çayı...", "Arzu da bir ömürdür", "Könlümü ümidlər yaşadır", "Günlər və xatirələr", "Ömrə yelkən ümidlərim", "Ömrün payız dayanacağı", "Könlümdə başlanır sanki toy-büsat", "Təbrizin gülləri qönçə, güllər açmaz mən gəlincə", "Beləcə sahilə can atıram mən..." və s. istifadə etmək olar. Tədbirlər arasında "Kölgə ilə Danışan Misralar" adlı sual- cavab mühüm yer tutur.

Sual cavab gecəsini iki hissəli təşkil etmək olar. İlk hissədə kitabxanaçı oxuculara qısaca olaraq Mədinə Gülgünün həyat və yaradıcılığı haqqında məlumat verir. Daha sonra isə oxuculara yazıçı ilə bağlı suallar təqdim olunur.

Kitabxanaçı: Əziz oxucularımız, indi isə sizlərin şairə haqqında bildikləriniz və öyrəndiklərinizi yoxlamaq məqsədilə sizə suallar təqdim edirik:

Sual: Uşaqlar, Mədinə Gülgünün hansı kitablari ilə tanışsınız?

Cavab: ”Ömrün payız dayanacağı”, “Firudun”, “Ömrə yelkən ümidlərim”, “Günlər və xatirələr” , ”Könlümü ümidlər yaşadır”, “Arzuda bir ömürdür”, “Seçilmiş əsərləri” və s.

Sual: Uşaqlar, şairənin hansı poemalarını oxumusunuz?

Cavab: “Apardı sellər Saranı”, “Ürəklərdə, nəğmələrdə yaşayanlar”, “Nənələr və nəvələr”, “Xatirələrimin nəğməsi”, “Dastana çevrilmiş həyat”, “Həsrət”, “Savalanın ətəklərində”, “Mənim dostlarım”, “Tarixdən yarpaqlar”.

Sual: Mədinə Gülgünün hansı poemasından Təbriz həsrəti süzülür?

Cavab: Tarixdən yarpaqlar poeması

Gəl oturaq üz-üzə

Sən danış aram-aram.

Axı sən danışmasan

Mən keçən günlərimdən

Necə nəğmə yazaram?!

Yadıma Təbriz düşüb,

Mənə Təbrizdən danış.

Sevgimin ilk qönçəsi,

Anamın laylay səsi

Axı Təbrizdə qalmış...

Mən Təbrizin bu günü.

Sən dünənindən söz aç.

Könlüm intizardadır,

O sinə dəftərini

Varaqla yavaş-yavaş...

Sual: "Tarixdən yarpaqlar" poemasında hansı tarixi şəxsiyyətlərin, azadlıq mücahidlərinin adı çəkilir?

Cavab: Səttarxan, Sərdar, Tağı, Nağı, Məmməd.

Sual: Sözü gedən əsərdə Cənubi Azərbaycanımızıın Təbriz və daha hansı bölgələrinin adı vurğulanmışdır?

Cavab: Tehran, Şeşgilan, Əhrab, Əmrəxiz, qoca Ərk, Dəvəçi məhəlləsi və s.

Ayılır yorulmuş, təngimiş şəhər

Ayılır Şeşgilan, Əhrab, Əmrəxiz,

Ey daş döşəməli yollar, küçələr,

Təpiklər altında bərkidiniz siz.

Sual: Uşaqlar, bu əsərdə sizi kədərləndirən, üzən, sizə daha çox təsir edən hansı anlar, səhnələr oldu?

Cavab (I oxucu): Vətənçün mübarzə aparan oğullarımızın acınacaqlı ölümü, şəhidlik zirvələrinə ucaldılması bizi dərindən təsirləndirdi.

II oxucu. Bizi ən çox təəsirləndirən sapı özümüzdən olan vətəninin çörəyini yeyə-yeyə, suyundan içə-içə ona nankorluq edən, xəyanət edən vətən xainləri oldu.Vətəni satmaq nə demək?!...

Sual: Uşaqlar, bu qərara necə gəldiniz?

Cavab: Fəqət nankorlar da oldu arada,

Bir baxın Dəvəçi məhəlləsinə

Ağ bayraq sallanır damlardan indi

Mirhaşım, ar olsun, ar olsun sənə

Axı Təbriz sənin ilk beşiyindi.

Burnundan tökülsün ananın südü,

Təslim bayrağını qaldıran yerdə.

Sənə kim öyrətdi, kim fitva verdi,

Lənət deyəcəkdir sənə göylər də.

Sual: Uşaqlar, şairənin daha hansı poeması haqqında söhbət açmaq istərdiniz?

Cavab: "Həsrət" poemasını deyə bilərik.

Sual: Mədinə Gülgünün bu əsəri nə üçün sizin qəlbinizə yaxın oldu?

Cavab: I şagird. Əsərin sujeti həyatdan götürülmüşdür.

II. şagird. Əsərdə azadlıq, vətən eşqi, ədalət və s. kimi insani hislər və insani keyfiyyətlər tərənnüm olunur.

III şagird. Məni ən çox təəsirləndirən, bu əsərə

bağlayan isə, kiçicik bir ürəkdə böyük bir qəlbin

var olmasıdır.

Sual: Əsərdəki mənfi qəhrəmanlar kimlərdir?

Cavab: Əsərin mənfi obrazı Xan özüdür. O, çox mərhəmətsiz, kinli, eyni zamanda qəddar insandır. Buna misal olaraq:

O bacarsaydı əgər

Günəşə də, aya da

Mənimkidir deyərdi.

Kəndin camaatından

Günəşin də, ayın da

Kirəsin istəyərdi.

Sual: Bu poemada azadlıq eşqi, vətən sevgisi ən çox hansı bənddə bariz bir şəkildə özünü göstərməkdədir?

O bilmirdi bülbülün
Qəlbindən nələr keçir
Qızıldan da qayırsan
Qəfəs yenə qəfəsdir.
Xan duymurdu bülbülün
Dərdini, həsrətini.
Xan duymurdu bülbülün
Azadlıq arzusunu,
Vətən məhəbbətini...


















**Kitab müzakirəsi**

Şairə Mədinə Gülgünü məktəblilərə yaxından tanıtmaq və sevdirmək üçün F. Köçərli adına Respublika Uşaq kitabxanasında "İnsan ruhunun poetikasında Mədinə Gülgün" adlı kitab müzakirəsi keçirilməsi məqsədə uyğundur. Şairənin yaradıcılığına həsr olunmuş bu müzakirədə onun bir sıra şeirlərinin toplandığı Azərbaycan Respublikasının Prezsidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan və ölkə kitabxanalarına hədiyyə edilən "Seçilmiş əsərləri" adlı kitabı müzakirəyə verilə bilər.

Müzakirədə ilk olaraq, kitabxanaçı şairə haqqında dəyərli məlumatlar verərək, Mədinə Gülgünün ömür yollarından söhbət açır.

Kitabxanaçı: "Apardı sellər Saranı" adlı poeması daxil olmaqla, "Uşaqlıq da həyatdır", "Yadıma Xəzər düşür", "Yazılı nağıllar", "Təbriz küçələri", "Ağ badam çiçəkləri", "Azərbaycan" müxtəlif mövzuların toxunulduğu bu kitabda müxtəlif şeirlər toplusu yer almaqdadır. Yüksək insani dəyərlərə malik şairənin həm incə, kövrək lirik duyğuları, həm də ümumbəşəri və milli ağrılardan doğan vətəndaş-şair narahatlığı, şair qəlbinin təlatümü, milli dəyərlərimiz, vətən nisgili, vətən, yurd həsrəti və s. hisləri bu kitabda öz əksinin tapmaqdadır. Kitabın ön hissəsində şairənin həyat və yaradıclığından bəhs olunur. İstedadlı şairəni ilhama gətirən ilk qığılcım və incə nüanslar vurğulanır.Onun ilk əsərlərinə qanad verən , təkan verən qəlb hərarəti, istiliyi, arzu və diləyi bariz bir şəkildə özünü büruzə verir.

Araz axdı, sinəsində

od alışdı,

İnsan kimi dilə gəldi

O danışdı.

Gah lal axdı, gah dalğalar

Səddi aşdı,

Sular coşdu şaha qalxdı bir köhlən tək

Hər damcıda n eçə dilək.

Kitabxanaçı  kitabda olan bir neçə şeir adlarını sadalayır. Sonra isə ”Quşlara daş atmayın” şeirini qiraətlə məktəblilərə oxuyur.

Quşlara daş atmayın

Quşlara daş atmayın,
Qüşlar, ürkər,dağılar.
Nağıllı nəğmələri
Birdən yarıda qalar .

Quşlara daş atmayın,
Qoy qonsunlar ağaca
Könül mahnılarını
Oxusunlar doyunca.

Quşlara daş atmayın,
Qırılar qanadları.
Bir cüt qanadlardadır
Onların həyatları.

Quşlara daş atmayın,
Balası var quşun da.
Anasız balaları
Zar-zar ağlar quşun da.

Quşlara daş atmayın,
Belə zarafat olmaz.
Zarafat dağıdanı

Bəzən top da dağıtmaz.

Quşlara daş atmayın,
Quş dünyası ayrıdır.
Quşlar çiçəkli yazın
Gözəl bəstəkarıdır.

Quşlara daş atmayın,
Güllərin gözü dolar.
Quşlara daş atmayın
Yuvalar quşsuz qalar.

Quşlara daş atmayın,
Nəğmələnsin bağ-bağça.
Sinəmi nişan alın
Quşlara daş atınca.

Qayğıkeş şairə Mədinə Gülgün bu şeiri böyük həssaslıqla yazmışdır. Şeirin hər bir bəndi, misrası şairənin qəlb çırpıntılarından, ürək yanğısından yoğrulub sanki. Bu Mədinə Gülgün harayıdır. Hər misra bir fəryad, bir etirazdır. Quşların ürkməsinə, səf-səf düzümünün dağılmasına belə dözə bilməyən şairə quşları məhs aid olduqları yerdə, agac başlarında könül mahnılarını oxuyarkən görmək istəyir. Şairə istəyir ki, ağac başları yuvasız, yuvalar da ona pənah gətirmiş, köç etmiş quşlarsız qalmasın. O, sanki duyur anasız quşların zar-zar ağlar səsini...Nə acı... Mədinə Gülgün çiçəkli yaz qoxuyan, bahar qoxuyan elçi quşların susmasına susa bilməyir. Gözəl şairənin təkcə quşlara ürəyi yanmır, eyni zamanda öz bəstəkar sahibini, qəlb yoldaşını, könül həmdəmini itirən sahibsiz, həmdəmsiz qalan, ayrılığa dözməyən gözü dolan güllərə ürəyi yanır, qəlbi titrəyir. Əsərin ən kulminasiya nöqtəsi isə məhs sonuncu bəndidir. Bu bənddə təkcə insan, şair qəlbinin göynərtiləri deyil, bir ana fəryadı, mələklərin

uçuşduğu, nurunu çilədiyi bir ürəyin döyüntüsü  görünür ən bariz şəkildə. Sinəsinin belə daşlara tuş gəlməsinə razı olan şair ürəyi quşların qanadlarının sınmasına razı ola bilmir, onların bu aqibətiylə, bu tale yüküylə barışmır, nəticədə  isə, belə gözəl, fəlsəfi, ibrətamiz əsər yaranır. Əziz məktəblilər, düşündükdə ki, məhs  bu şeirə görə neçə-neçə nəğməkar quşlarımızın avazı susmur, cəh-cəhi əksilmir, bunun üçün qayğıkeş şairə Mədinə Gülgünə yalnız sonsuz təşəkkür borcumuz olduğunu görərik.

**Ədəbi - bədii gecə**

Mədinə Gülgünün atəşindən bir qor, bir qığılcım almaq üçün, onun gözəl şeirlərini bir daha dinləmək, bir daha hiss etmək üçün  ədəbi-bədii gecə keçirmək məqsədəuyğundur. "Bir torpaq üstündə doğulmuşuq biz. Bir qolum Bakıdır, bir qolum Təbriz" başlığı  altında ədəbi-bədii gecə keçirilir. Tədbirin birinci hissəsi ədəbi, ikinci hissəsi isə bədii olur. Birinci hissədə çıxışlar və məruzələr dinlənilir, qonaqlara söz verilir. İkinci hissədə isə, Mədinə Gülgün yaradıcılığına müraciət  olunur. Tədbirdə şairənin qələmə aldığı, toxunduğu hər bir mövzu haqqında söhbət açılır. Səhnə Mədinə Gülgünün şeirləri və onun haqqında yazılmış sitatlarla bəzədilir.p

Mədinə Gülgünün portreti səhnənin divarından asılır. Səhnədən asılan portretin önünə gül dəstəsi qoyulur.  Şairənin şeirləri dinlənilir, poemalarından kiçik hissələr səhnələşdirilir.

Aparıcılar səhnəyə daxil olur.

I aparıcı:    Əziz və hörmətli qonaqlar! Sizi F. Köçərli adına Respublika Uşaq Kitabxanasında  xoş gördük! Bu gün hamımız buraya  kövrək ruhlu, usta qələm, incə qəlb sahibi  gözəl  şairəmiz Mədinə Gülgünün istisinə yığılmışıq. Ondan söhbət açmağa, şeirlərini dönə- dönə dinləməyə, bir sözlə, onun qaynar qəlbindən bir parça qor almaq üçün toplanmışıq.

II aparıcı:   Sevgi, kədər və sükut arasında Poeziyaya çevrilən   Mədinə Gülgün 1926-cı il yanvarın 17-də     Bakıda fəhlə ailəsində anadan olmuşdur."Hələ uşaq ikən eşitdiyi, məktəb yaşlarında oxuduğu gözəl şeir nümunələri Mədinə Gülgün  qəlbində poeziyaya sönməz  məhəbbət çırağı yandırmışdır. Uşaqlıq illərindən  ilham pərisi onu qanadlarına alaraq göylərə pərvaz etmiş və ən ülvi hissi, yazıb -yaratmaq eşqini onun kövrək qəlbinə hopdurmuşdur.

I aparıcı:      Ömrünü aydan,  ildən,

İlhamı doğma dildən,

Xeyir- duanı eldən

Alıbdır şeirim mənim.

Bəli, Mədinə Gülgün poeziyası əzəmətini dağlardan, bərəkətini bağlardan, ahəngi bulaqlardan, ətrini çiçəklərdən, qəzəbini şimşəklərdən, atəşi ürəklərdən, kövrəkliyi buluddan, lal durmağı sükutdan, hikməti babalardan, sadəliyi nənələrdən yoğrulmuşdur.

II aparıcı: Hər kəsin qismətinə bir tale yazan, bir ömür yolu bəxş edən uca tanrımız kövrək ruhlu, əli qələmli şairəyə də keşməkeşli, enişli- yoxuşlu, yazıyla- boranıyla, baharıyla-qışıyla, sevincli- kədərli bir ömür yolu bəxş etdi. O ömür yolu ki, orda vətən həsrəti, ana nisgili, yurd özləmi, qəlbin gizli üsyanı, hayqırtısı vardı. Bir qəlbdə ki, daim işaran, var olan, şam kimi yanan, lakin heç zaman əriyib yox olmayan ümid vardı.O ümid ki, bir an belə şairənin bütün mənliyini tərk etmədi.. Lap sonuncu mənziləcən Mədinə Gülgünlə qoşa addımladı inamlar, ümidlər.

Vüsal ver, yandım, dedim,

Vüsalı şərbət edim,

Mən içim udum-udum,

Ay sevincim, umudum.

I aparıcı: O tale yolu ki, mübarizə, əzm, həyat eşqi, gözəl hislərlə, sevmək, sevilmək hissi, duymaq hissi,təbiətə, həyata qəlb gözüylə baxmaq imkanı, bu gözəl dünyamızı mənalı yaşamaq və gözəl qələmi, nikbin poeziyası ilə ölümsüzlük zirvəsinə ucalmaq qisməti düşdü ömür payına.

Mən nə güləm, nə çiçəyəm

Nə də əsən bir küləyəm.

Ötsən bizim ellərə de-

Mən yenə də gələcəyəm.

II aparıcı:Görkəmli şairəmiz Mədinə Gülgün yaradıcılığı öz fərdiliyi və rəngarəngliyi ilə seçilir, sevilir. Şeirlərindəki axıcılıq, ahənglik, nikbinlik, sadəlik və bədiilik oxucu tərəfindən mənimsənilir, sevilir. Mədinə Gülgünün ilk yaradıcılığı Azərbaycan xalqının azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə illərinə təsadüf edir. Milli-azadlıq hərakatının geniş vüsət aldığı və ikinci dünya müharibəsi dövründə ədəbiyyata

gələn  Mədinə Gülgünün ilk şeirlərində nəzərə çarpan cəhət bu şeirlərin xalqın həyatı və mübarizəsi ilə bağlı olması idi. Onun şeirlərində başlıca yer tutan hicran, həsrət motivləri də əsasən buradan irəli gəlirdi.

I aparıcı:   Mədinə Gülgünün poeziyasının əsasını, nəğmələrin baş ahəngini xalqa, doğma vətənə övlad məhəbbəti, oxucularını ağ günlərə və qurtuluş uğrunda döyüşlərə çağırış nidalarını başlıca motivlərini təşkil etmişdir. Onun əsərləri bir sıra xarici ölkələrin dillərinə tərcümə olunmuşdur. Dünya xalqlarının azadlıq və istiqlaliyyət uğrunda mübarizısini bir humanist şair kimi daim izləmiş, kəsərli sözləri ilə onların səsinə səs vermişdir.

Eldən-elə körpü olsaq,

Müjdə verib, müjdə alsaq,

Yollar üstə şəfəq salsaq

Dünya dağılmaz ki, qardaş.

II aparıcı: Şairin Bakıda və Moskvada “Təbrizin baharı” (1950); ”Savalanın ətəklərində” (1950); “Sülhün səsi” (1951); “Yadigar üzük” (1953); “Təbriz qızı” (1956); “Firudun” (poema) (1963); “Dünyamızın sabahı (1974); ”Durnalar qayıdanda”(1983); “Dünya şirin dünyadır” (1989); ”Çinar olaydı”, “Arzu da bir ömürdür”, “Yora bilməz yollar məni” (1978); “Könlümü ümidlər yaşadır” və onlarca digər şeir kitabı dərc olunmuşdur. Bu kitabların başlıca mövzusu insan, azadlıq, Təbriz həsrəti, insanlara canı yanan bir ana  qəlbinin arzu və istəkləridir. Onun lirik şeirlərinə mahnılar bəslənmişdir.

I aparıcı:   Mədinə Gülgün Böyük Azərbaycan şairidir. Həm bu tayın, həm o tayın. Mədinə Gülgün

“İki sahilin şairəsi” idi.

Nə ola qanadlı ləpələr kimi

Səfərim sahilə ani olaydı.

Rahatlıq tapaydım körpələr kimi,

Dəniz əbədilik nənnim olaydı.

II aparıcı: Mədinə Gülgün yaradıcılığı bahar təravətli , bənövşə, novruzgülü qoxuyan, yaz yağışında islanmış payız yarpağıdı sanki. Qəribə bir təzadın özüdə, ahənglik

yaratmış sanki onun poeziyasında. Daim gələcəyə nikbinliklə, ümidlə, həvəslə, sevgiylə, hərarətlə baxan şairənin gözlərində özünə məxsus bir hüzün, nigaranlıq, həsrət zillənir sanki ağ vərəqlərə. Sonu gəlməyən bir hüzün çökür nöqtəyə, vergülə. Şeirlər həsrətə boyanır, naləyə bürünüb ərşə qalxır və nura çevrilib vərəqlərə süzülür. Beləcə,"Dünyaya bir şeir gəlir".

Durnalar vida edir

Həsrətə, ayrılığa.

Həsrətin acısını

Yollardan yığa-yığa,

Yeddi rəngə girirlər

Göydə bir an içində.

Durnaların bu ülvi

Qatarında, köçündə

Dünyaya şeir gəlir.

I aparıcı: Təəssüf ki, nikbin şairəmiz Mədinə Gülgünün qəlbi daim bir nisgillə qoşa döyündü. Vətən, doğma yurd həsrəti çəkən, hər zaman Təbriz deyə-deyə köks ötürən şairimizin yaradıcılığının böyük bir qismi məhs bu mövzularla bağlıdı...Təbriz, Təbriz və yenə də Təbriz...

Sazdan, neydən betərəm,

Nə susar, nə yataram.

Dərdli-dərdli ötərəm

Təbrizi görməyincə.

Bir digər şeirində:

Deyirəm mən bir də dönsəm Təbrizə,

Təbrizi bağrıma basaram vallah.

İnsanlar fərəhlə baxarlar bizə,

Fərəhlə açılar hər açan sabah.

II aparıcı: “Əskilər dünyadan bir həsrət, bir qəm” deyən Mədinə Gülgünün qəlb sıxıntıları bu və digər misralarda aydın görünməkdədi”. Mədinə Gülgün bəzən özünü “Dünyanın dərdləri doğmadır mənə”, “Dünyanın qoynunda çalxalanan gəmi”, ”Hər gün oda qalannam, vüsal deyib dolannam” kimi qələmə versə də, “Hələlik gəlmirəm mən, Kamınca gülmürəm mən” desə də, köhnə xatirələrini, yeni ümidi ilə həmahəng edib xəyal dünyasına gözəl bir rəsim çəkirdi..

Bir yanım hicrandır, bir yanım vüsal,

Bir yanım sevincdir, bir yanım məlal.

Məni yenə aldı, apardı xəyal,

Hanı o xoş illər, ay ellər, ellər.

I aparıcı: Mədinə Gülgün yaz şairi, bahar şairi idi. Qaranquşlar sanki başqa diyarlardan ilham gətirərdi, yazıb yaratmaq eşqi gətirərdi bu aylarda şairə sanki. Hər yaz neçə-neçə şeir töhfələri demək idi, Gülgün sevərlərə. Necə ki, baharda ağaclar çiçəklənər, ləçəklərini aləmə yayar, yaz vurğunu şairəmiz də bahar qoxuyan şeirləri ilə oxucu qəlbində çiçək açardı. Bəli, o yaz vurğunu, bahar aşiqi idi.

Baharın tər nəfəsində

Güllər xoş gəldi, xoş gəldi.

Coşub, daşmaq həvəsində

Sellər xoş gəldi, xoş gəldi.

II aparıcı: İllər ötür, zaman atlı biz isə piyada oluruq bəzən. Ömür adlı sarayımızdan kərpiclər düşür, biz bilmədən, hiss etmədən. İllərin burulğanlarından dolana- dolana ömür adlı səhifəmizi vərəq- vərəq sonlandırırıq bəzən. Bu gözəl dünyanı vaxtlı- vaxtsız tərk edir, əbədiyyətə qovuşuruq. Nikbin şairəmiz Mədinə Gülgünün də ömrünün üstünə illər yaş gətirirdi. Ömrünün payız fəslini yaşayan şairə “Ömrün payız dayanacağı” adlı kitabla oxucuları ilə arsında bir növ körpü qurdu.

Mədinə Gülgün: “Sizə yeni ərmağanım bu kitabımda müxtəlif illərimin, aylarımın, günlərimin bəhəri olan əsərlərim toplanmışdır. Burada həm adı, həm yaşı, həm ünvanı çoxdan məlum olan bir sıra əsərlərimlə bərabər, həmişə olduğu kimi Vətən torpağından

ilham alan, neçə-neçə yuxusuz gecələrimin, Təbrizin narahat günləri kimi narahat günlərimin əks-sədası, tərcümanı olan təzə-tər şeirlərim el-obamla görüşmək eşqiylə səfərə çıxmışdır”.

Ömrün təzə dayanacağında durmuşam.

Sinəmdə sözlərin axını.

Təzə nəğmələrlə

dindirmək istəyirəm,

sevindirmək istəyirəm

yenə Vətən torpağını.

Könlümdə

yenə gənclik hərarətim.

Önümdə

Dostlara açılmış süfrəm.

Payız səxavətim...

II aparıcı: Mədinə Gülgün 17 fevral 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir. Həyat adlı ağacın 65-ci baharını görən, çiçəyini dərən şairə Fəxri Xiyabanda dəfn edilir. İki sahilin şairi Mədinə Gülgün “Ölmərəm, ölmərəm mən Təbrizi görməyincə” desə də, əhdinə sadiq çıxa bılmədi...Ancaq biz inanırıq ki, onun ruhu elə o andaca pərvaz etdi, o taylı- bu taylı Azərbaycanımızda. Mədinə Gülgün tez tərk etdi bizləri, doğmalarını, ən əsası da o inci, dür tökülən qələmini. ”Apardı sellər Saranı” poemasına qanad verən, can verən şairəmizi də bizlərdən elə tale özü apardı... Təəssüf...

I aparıcı: Bəli, həyatın acı gərçəyi olan ayrılıq onu bizdən ayırdısa da, onun mənalı ömür yolunu, örnək həyat fəlsəfəsini, ən əsası da, kövrək yaradıcılığını, nəğməli şeirlərini, aşıladığı Vətən sevgisini apara bilmədi. O ülvi, təmiz hislər bizimlə qaldı. Nə yaxşı ki, Mədinə Gülgün rüzigarı əsdi, keçdi, nə yaxşı ki, Mədinə Gülgün çiçəyi açdı, nə yaxşı ki, Mədinə Gülgün yağmuru yağdı ədəbiyyatımızda və biz o rüzigarın xəfifliyini duyduq, o çiçəyin iyindən çox xoş olduq, o yağışın damlasından nur aldıq və Mədinə Gülgün dünyasını tanıdıq, sevdik o dünyanı, daim də sevəcəyik.

Mən nə güləm, nə çiçəyəm,

Nə də əsən bir küləyəm.

Uç bizim ellərə, söylə-

Mən yenə də gələcəyəm.

Mən yenə də gələcəyəm.

II aparıcı: İndi isə gəlin oxucularımızın ifasında Mədinə Gülgün poeziyasından çox maraqlı şeirə, "Mən kiməm" şeirindən hazırlanmış səhnəciyə tamaşa edək. Səhnə əsərə uyğun dekorasiyalarla bəzədilir. Səhnəyə şeirə uyğun libaslarda, ana, qaranquş timsallı insan, övlad, şair, cavan gəlin, dost rollarının ifaçıları gəlir. Səhnədə ilk başına ağ örpək atmış ağ saçlı ana rolunda iştirak edən şagird başlayır.

Ana: Mən kiməm, arzusu şirin bir ana,

Yanar çıraq- çıraq yolumda arzum.

Mən nəyəm, bənzərəm dan ulduzuna,

Sübhü gözlərimlə açaram özüm.

İnsan: Mən kiməm, qaranquş timsallı insan,

Müjdəylə uçaram eldən-elə mən.

Mən nəyəm, sinəsi geniş asiman,

Nur allam günəşin şəfəqlərindən.

Şair: Mən kiməm anamın ilki, əzizi,

Xalqımın bir şair fədaisiyəm .

Mən nəyəm, nəğmələr, sözlər dənizi,

Coşub, dalğalanıb, hey ötəsiyəm...

Mən kiməm, bir şair ömrünə həmdəm,
Yolumuz da birdir, bəxtimiz də bir.
Mən nəyəm, bir dünya sevincəm, qəməm,
Məni qəm dondurur, sevinc isidir.

Cavan gəlin: Mən kiməm, dünənki bir cavan gəlin,
Bu günü oğullu, gəlinli ana.
Mən nəyəm, özüyəm bir xoş əməlin,
Alqış bu əməlin sonsuzluğuna.

Dost: Mən kiməm, dotuma dostam, köməyəm,
Xoşdur dost yolunda dara da düşmək.
Mən nəyəm, məhəbbət dolu ürəyəm,
Çağla məhəbbətlə, çağla, ey ürək.

Başqa bir şagird önə çıxaraq, sonuncu bəndi ifa edir.

Mən kiməm, bu doğma yurdun övladı,
Gücü bu torpaqdan alıram hər dəm.
Mən nəyəm, bir quşun qoşa qanadı,
Mən bu qanadlarla yüksələcəyəm,
Yüksələcəyəm...

I Aparıcı: Azərbaycanın azadlığı və ərazi bütövlüyü mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli

günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd vətən övladları canlarından keçərə şəhidlik zirvəsinə ucaldılar. Xalqın qan yaddaşında ümumxalq hüzn günü kimi həkk olunan bu faciə bütün hər kəsi sarsıtdı.

II aparıcı: Bu dərin kədər eləcə də, Mədinə Gülgün qəlbini yaraladı. Bir vətəndaş, bir qadın, bir ana kimi, bir şairə kimi Mədinə Gülgün ürəyi üsyan etdi bu haqsız, ədalətsiz misli görünməmiş, faciəyə.Və üsyanın, hayqırışın hər biri bir misraya, bir bəndə çevrilib yağgöz yaşı kimi vərəqlər üzərinə.Yağdı, yağdı və misralar bəndə, bəndlərsə, şeirə döndü.

Gəlin, şagirdlərin səhnələşdirdiyi bir qəlbin qəmindən yoğrulmuş, fəryadından su içmiş "Şəhid balalara" adlı şeirə tamaşa edək. Səhnədə bir neçə şagird cansız bədənləri qan içində yerə yıxılmışdır. Onlar yağı gülləsinə tuş gələn və yenicə o müqəddəs zirvəyə yüksələn şəhidlərimizdir. O məsum fidanlar vətən yolunda canlarından keçmişlər. Qara baş örtüklü ana böyük bir çaşğınlıqla dilində ahu-nalə, fəryadlarla səhnəyə daxil olur. Qatil gülləsinə tuş gəlmiş şəhid balalara bir-bir yaxınlaşaraq əyilir və onları oxşayaraq şeirə başlayır.

Ana: Dərdimi necə deyim,vallah deyə bilmirəm,

Mən necə üsyan edim yerə-göyə bilmirəm.

Başıma qara salıb, qara geyə bilmirəm,

Bu şəhid balaların ölən çağı deyildi.

Sonra, göz yaşları içərisində başqa bir şəhidə doğru əyilərək şeirin ikinci bəndinə başlayır.

Ağlatdılar daşı da, torpağı da ay Allah,

Sındırdılar bir körpə budağı da ay Allah.

Bağlı qaldı neçə bəy otağı da, ay Allah,

Bu şəhid balaların ölən çağı deyildi.

Ana ayağa qalxır, əynindəki gəlinliyi qana bulaşmış yeni gəlin Fərizəyə yaxınlaşır. Ehtiyatla onun başını dizləri üstə qoyaraq şeirinə davam edir.

Bir gəlinin əlindən getməmişdi hənası,

Bir gülləyə dağıldı onun ömür dünyası.

İndi analar tutur oğul yası, qız yası,

Bu şəhid balaların ölən çağı deyildi.

Ana ayağa qalxıb ətrafa nəzər salır, kədərli baxışlarla və şeirinə davam edir.

Dayanmışam kədərlə məzarların önündə,

Dönür göz yaşlarına göydə duman da, çən də.

Dünya mənə dar gəlir elimin dar günündə.

Bu şəhid balaların ölən çağı deyildi.

Sonra ana ayağa qalxır və göz yaşlarını silərək daha bir bəndi deməyə başlayır.

Ana Dayanmışam gözümdə iki damla yaş mənim,

İçimdə haray salan tufan mənim, qış mənim.

O güllələr dəyəydi bu sinəmə kaş mənim,-

Bu şəhid balaların ölən çağı deyildi.

Səhnənin bir kənarına məktəbdən gələrkən düşmənin amansız qəzəbinə tuş gələn məsum şagirdlərin çantalarını yerdən götürür və həmin körpə fidanlara yaxınlaşaraq şeirin sonuncu bəndini göz yaşları içərisində deməyə başlayır.

Ana: Hələ çoxlu fidanın boy atası vaxtıdır,

Quşların körpələri oyadası vaxtıdır,

Çox ananın kam alıb, toy tutası vaxtıdır,

Bu şəhid balaların ölən çağı deyildi

Tamaşaçıların alqış sədaları altında məktəblilər səhnədən ayrılırlar.

**Ədəbiyyat siyahısı:**

1.Gülgün M. Günlər və xatirələr. Şeirlər və poemalar.-B.: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı,1959-150 s.

2.Gülgün M. Firudun poema.- B.. Azərbaycan Dövlət Nəşriyyatı,1963-64 s.

3.Gülgün M. Arzu da bir ömürdür. Şeirlər və poemalar.-B.:Gənclik,1976.-277 s.

4.Gülgün M. Ömrə yelkən ümidlərim. Şeirlər və poemalar.-B .:Gənclik,1981-104 s.

5.Gülgün M. Ömrün payız dayanacağı.Şeirlər və poemalar.

B.:Yazıçı,1983-237s.

6.Gülgün M. Könlümü ümidlər yaşadar. Şeirlər və poemalar.-B.:Gənclik, 1984-254 s.

7.Gülgün M. Dünya şirin dünyadır.-B.:Gənclik,1989.-200 s.

8.Gülgün M. Mən bu ömrü yaşadım. Şeirlər.

B.:Tədris,1997.-87 s.

9.Gülgün M. Seçilmiş əsərləri. Şeirlər və poemalar.-B.: Şərq-Qərb , 2004 -224s.

Əsərləri dövrü mətbuatda:

1.Gülgün M. Azərbaycan: Respublika gününüz mübarək //

Göy qurşağı. -2010. -№3 (may-iyun).-S.3.

2.Gülgün M. Bir gün : Azəroğluna / M. Gülgün// Ədəbiyyat qəzeti.-2009. 27 fevral.-S.3.